



1

# TƏSVİRİ İNCƏSƏNƏT

DƏRSLİK



LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

KƏMALƏ CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT

# 1

Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün
“Təsviri incəsənət” fənni üzrə

## DƏRSLİK

Nəşrlə bağlı irad və təklifləri
bn@bakineshr.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərə bilərsiniz.

LAYİHƏ

# Mündəricat



## 1 ƏTRAFA NƏZƏR SALAQ


1. Təbiətin gözəlliyi . . . . . . . . . . . . . . . . . . 14
2. Ətrafda xəttin müxtəlifliyi . . . . . . . . . . . . . . . 16
3. Təbiətin nemətləri . . . . . . . . . . . . . . . . . . 18
4. Kiçik dostlarım . . . . . . . . . . . . . . . . . . . 20
5. Rəngarəng quşlar . . . . . . . . . . . . . . . . . . 22
**STEAM: Heyvanlar aləminin xəritəsini çəkək** . . . . . . . . 24


## 2 TƏBİƏT VƏ İNCƏSƏNƏT




6. Təbiətin yaratdığı evlər . . . . . . . . . . . . . . . . 26
7. Torpağın naxışları . . . . . . . . . . . . . . . . . . 28
8. Heyvanların naxışlı "geyimləri" . . . . . . . . . . . . . 30
9. Təbiətin rəngləri . . . . . . . . . . . . . . . . . . 32
10. Bəzəkli həşəratlar . . . . . . . . . . . . . . . . . . 34
**STEAM: Payız meşəsində düşərgə aplikasiyasını düzəldək** . . 36


## 3 DƏYƏR VERDİYİMİZ İNSANLAR




11. Mən kiməm? . . . . . . . . . . . . . . . . . . . . 38
12. Həyatımızdakı xüsusi insanlar . . . . . . . . . . . . . 40
13. Fəaliyyətdə olan insanlar . . . . . . . . . . . . . . . 42
**STEAM: İncəsənət muzeyinə səyahət edək** . . . . . . . . 44


LAYİHƏ

## 4 İNSAN VƏ MƏKAN




14. Evimizin otaqları . . . . . . . . . . . . . . . . . . 46
15. Pəncərədəki naxışlar . . . . . . . . . . . . . . . . . 48
16. Yaşadığımız küçə . . . . . . . . . . . . . . . . . . 50
17. Torpaq və səma . . . . . . . . . . . . . . . . . . 52
18. Əyləncə parkı . . . . . . . . . . . . . . . . . . 54
**STEAM: Şəhərimizi quraq** . . . . . . . . . . . . . . . 56


## 5 ƏYLƏNCƏ ZAMANI




19. Ziyafət şirniyyatı. . . . . . . . . . . . . . . . . . 58
20. Bayram geyimləri . . . . . . . . . . . . . . . . . 60
21. Xüsusi geyimlər . . . . . . . . . . . . . . . . . . 62
22. Oyun geyimləri . . . . . . . . . . . . . . . . . . 64
23. Bayram maskaları . . . . . . . . . . . . . . . . . 66
**STEAM: Əyləncə üçün məkan və geyim çəkək** . . . . . . . 68


## 6 HƏYATIMIZDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR






24. Ağıllı oyuncaqlar . . . . . . . . . . . . . . . . . 70
25. Gündəlik əşyalar . . . . . . . . . . . . . . . . . 72
26. Gələcəyin mebeli . . . . . . . . . . . . . . . . . 74
27. Səyahət üçün avtomobil . . . . . . . . . . . . . . 76
**STEAM: Gələcəyin robotlarını hazırlayaq** . . . . . . . . . 78

Yeni sözlər lüğəti . . . . . . . . . . . . . . . . . . 80


LAYİHƏ

# Kitabınızla tanış olun

**Şərti işarə**
Mövzu üzrə təqdim edilən fotoşəkil, rəssam əsərləri və ya şagird rəsmlərinin ardıcıllığını göstərən şərti işarə.

**Düşünək–müzakirə edək**
Bütün siniflə müzakirə etmək üçün mövzuya yönləndirici suallar, fotoşəkil və rəssam əsəri.

## 1 Təbiətin gözəlliyi

**Düşünək-müzakirə edək**

Fotoşəkillərdə nə görürsünüz? **A** və **B**

Təbiətdə hansı gözəllikləri görmək olar?



**A**
Şəki. Azərbaycan. Fotoşəkil



**B**
Altıağac Milli Parkı. Azərbacan. Fotoşəkil

14

LAYİHƏ

**Öyrənək**
Mövzu ilə tanışlıq.

**Qalereya**
Rəssam yaradıcılığı, əsərlərin təhlili və tənqidi üzrə iş.

**Yaradıcılıq studiyası**
Yaradıcı fəaliyyət üçün nəzərdə tutulan tapşırıq və şagirdlərin rəsm nümunələri.

**Öyrənək**

Ətraf aləm **rəngarəng**dir. **Rəssam** bu gözəlliyi əks etdirir. Onun çəkdiyi rəsm **təsvir** adlanır.

**Qalereya**



**Səttar Bəhlulzadə**
Rəssam təbiətin gözəlliklərini təsvir edir.



C "Cıdır düzü". Səttar Bəhlulzadə. 1956. Yağlı boya.

Rəssam nə təsvir edib C ?
Təsvirdə hansı rəngləri görürsünüz?

**Fəsillər haqqında nə bilirsiniz?**
**Ətraf aləm fəsillərə görə necə dəyişir?**

**Yaradıcılıq studiyası**

- Rəngli karandaşlar
- Rəngli flomasterlər

**Təbiətin gözəlliklərini təsvir edin.**

- Rəsmdə görmək istədiklərinizi təsvir edin.
- Bu rəsmdə özünüzü və canlıları da çəkə bilərsiniz.



Ç Şagird rəsmi

**Yeni sözlər**

- Rəssam
- Rəngarəng
- Təsvir
- Təsvir etmək

1 ƏTRAFA NƏZƏR SALAQ 15

**Yeni sözlər**
Mövzu ilə bağlı yeni sözlər.

**Refleksiya**
Mövzunu yekunlaşdırmaq üçün bütün siniflə müzakirəsi nəzərdə tutulan suallar.

LAYİHƏ

# Təsviri sənət nədir?
## Təsviri sənət – insanın yaratdıqlarıdır.

Rəngkarlıq



"Çoban sürüsü ilə".
Bəhruz Kəngərli.

Qrafika



"Sahildən uzaqda".
Altay Hacıyev.

Heykəl-
təraşlıq



"Çoban".
Fuad Əbdürrəhmanov.

Xalçaçılıq



Qarabağ xalçası.

Geyim



Azərbaycan
xalq geyimləri

Misgərlik



Mis kuzə



LAYİHƏ

# İnsanlar təsviri sənəti necə yaradır?

Hekayələr danışaraq



"Günəşli atlı". Mircavad Mircavadov.

Hissləri bölüşərək



"Mənim babam və nənəm ". Tağı Tağıyev.

Xüsusi insanları xatırlayaraq



"Qoca balıqçının portreti". Eyyub Məmmədov.

Əlamətdar vaxtları yada salaraq



"Mənim Azərbaycanım". Asəf Cəfərov.

Əşyaların zövqlü və yaraşıqlı görünüşünü təmin edərək



Mis dolça



Mebel



Avtomobil

LAYİHƏ

## Təsviri sənət yaradan insanlara rəssam deyilir.

## Rəssamlar bu mövzuları seçirlər.

İnsan təsviri



"Səməd Vurğun". Davud Kazımov.

Əşyaların təsviri



"Qırmızı bibərlə natürmort". Tahir Salahov.

Təbiətin təsviri



"Laçın, Kürdhacı kəndi". Maral Rəhmanzadə.

Sadə karandaşlar – yumşaq və sərt



Rəngli karandaşlar



Rəngli qələmlər



Pastel təbaşirlər



Rəngli flomaster və markerlər





LAYİHƏ

Yağlı boya



Akvarel



Palitra



Fırçalar



Pozan



Quaş



Suqabı



Karandaşyonan



## Rəssamlar **bu materiallarla** işləyirlər.



PVA yapışqanı
və karandaş-yapışqan



Rəsm çəkmək üçün
ağ və rəngli
kağız vərəqlər

Qayçı



Rəngli kağız
və karton



Plastilin





Steklər
(plastik bıçaqlar)



Plastilin üçün lövhə

LAYİHƏ

# Təsviri sənət əsərlərini **araşdıraq**



“Varlı evində Ramazan”. Əzim Əzimzadə.

**1.** Rəssam əsərində gördüklərimizi şifahi olaraq **təsvir edirik**.
Əsərdə nə görürsünüz?

**2.** Rəssam əsərininin quruluşunu **təhlil edirik**.
Əsərin hissələri haqqında nə deyə bilərsiniz?
Bu hissələr arasında hansı əlaqə var?

**3.** Rəssamın əsərdə təsvir etdiklərini **şərh edirik**.
Rəssamın məkana və insanlara münasibəti haqqında nə düşünürsünüz?
O, əsərdə nəyi çatdırmağa çalışıb?

**4.** Sənət əsərini **qiymətləndiririk**.
Rəssam əsərində nə xoşunuza gəldi?
Əsərdə nəyi dəyişmək istərdiniz?



LAYİHƏ

# 1 ƏTRAFA NƏZƏR SALAQ



- “Təbiət” dedikdə nə başa düşürsünüz?
- Ətrafımızda hansı gözəlliklər var?
- Təbiəti necə təsvir etmək olar?

LAYİHƏ

# 1 Təbiətin gözəlliyi

## Düşünək-müzakirə edək

Fotoşəkillərdə nə görürsünüz? **A** və **B**

Təbiətdə hansı gözəllikləri görmək olar?



**A**

Şəki.
Azərbaycan.
Fotoşəkil



**B**

Altıağac
Milli Parkı.
Azərbacan.
Fotoşəkil

LAYİHƏ

## Öyrənək

Ətraf aləm rəngarəngdir. **Rəssam** bu gözəlliyi çəkir. Onun çəkdiyi rəsm **təsvir** adlanır.

## Qalereya



**Səttar Bəhlulzadə**
Rəssam təbiətin gözəlliklərini **təsvir edir**.



C "Cıdır düzü". Səttar Bəhlulzadə.

Rəssam **əsər**də nə təsvir edib C ?
Təsvirdə hansı rəngləri görürsünüz?

**Fəsillər haqqında nə bilirsiniz?**
**Ətraf aləm fəsillərə görə necə dəyişir?**

## Yaradıcılıq studiyası

- Rəngli karandaşlar
- Rəngli flomasterlər

**Təbiətin gözəlliklərini təsvir edin.**

- Rəsmdə görmək istədiklərinizi təsvir edin.
- Bu rəsmdə özünüzü və canlıları da çəkə bilərsiniz.



Ç Şagird rəsmi

**Yeni sözlər**
- Rəssam
- Əsər
- Təsvir
- Təsvir etmək



LAYİHƏ

# 2 Ətrafda xəttin müxtəlifliyi

## Düşünək-müzakirə edək

Xətt nədir? Hansı xətləri tanıyırsınız? Səhralıqda dalğavari xətti görürsünüzmü? **A** Təbiətdə xətlərə daha harada rast gəlmək olar?



**A** Qum Təpə səhrası. Təbriz şəhərinin yaxınlığı. İran. Fotoşəkil.

## Öyrənək



Düz xətt



Qırıq xətt



Spiralvari xətt



Qıvrıq və ya buruq xətt



Sınıq ziqzaq xətt



LAYİHƏ

Hər yerdə **xətt** var. Rəsm də xətlə başlayır. Kağız üzərində müxtəlif xətlər, yaxud **cizgi**lər çəkmək olar.



## Qalereya



**B** "Mənim anam". Səttar Bəhlulzadə.

Rəssam öz əsərini hansı xətlərlə təsvir edib?

**Ətrafında olan əşyalarda hansı xətləri görmək olar?**

## Yaradıcılıq studiyası

- A4 formatlı rəsm vərəqi
- Rəngli karandaşlar
- Rəngli flomasterlər

**Müxtəlif xətlərdən ibarət rəsm çəkin.**

- Rəsmdə əşya və canlıları çəkin.
- Bir xətt çəkib, onu da təsvirə çevirə bilərsiniz.







**C** Şagird rəsmi

**Yeni sözlər**
- Xətt
- Cizgi



LAYİHƏ

# 3 Təbiətin nemətləri

## Düşünək-müzakirə edək

Rəssam nə təsvir edib? **A**
Onların forması, ölçüsü və rəngi haqqında danışın.



**A**

"Abşeron bağlarında".
Səttar Bəhlulzadə.

## Öyrənək

Təbiətdəki varlıqların müxtəlif **rəng**ləri, **ölçü**ləri və **forma**ları olur. Formalar dairə, kvadrat, üçbucaq və başqaları ola bilər. Forma – əşyanın ümumi görünüşüdür.





**Formalar bir-birindən nə ilə fərqlənir? Ətrafınızda bu formalarda daha nələr var?**



LAYİHƏ

**Payız giləmeyvələri, meyvə və tərəvəzləri yapın.**

• Onların forma, ölçü və rənglərini əvvəlcədən müəyyən edin.

**Yapma –** plastilin vasitəsilə yaradılan bədii fəaliyyət növüdür.

**Yaradıcılıq studiyası**

- Rəngli plastilin
- Plastilin üçün lövhə






**Ətrafınızdakı əşyaların forması, ölçüsü və rəngi necədir?**

**Yeni sözlər**

- Forma
- Yapma

LAYİHƏ

# 4 Kiçik dostlarım

## Düşünək-müzakirə edək

Heyvanları sevirsinizmi? Onlar harada yaşayırlar?
Heyvan fiqurlarında hansı formaları görürsünüz? **A**




**A** Formalardan hazırlanan heyvan fiqurları.

## Öyrənək

Rəssamlar öz sənət əsərlərini rəngli kağızlarla da yaradırlar.
Belə əl işləri **aplikasiya** adlanır.



LAYİHƏ

**Kağızdan heyvanların aplikasiyasını hazırlayın.**

- Hansı heyvanı hazırlayacaqsınız: ev heyvanını, yoxsa vəhşi heyvanı?
- Hansı formalardan istifadə edəcəksiniz?

**Yaradıcılıq studiyası**

- Rəngli kağızlar və karton
- Qayçı
- Yapışqan

**Heyvan fiquru hazırlamaq üçün:**

1. Rəngli kağızlardan əsas iri formaları kəsin.



2. Sonra daha kiçik formaları kəsin.



3. Formaları heyvan fiquruna uyğun olaraq rəngli karton üzərinə yapışdırın.



4. Detalları pastel təbaşirlərlə və ya kiçik kağız parçaları ilə əlavə edə bilərsiniz.



Hazırladığınız heyvanları “zooparkda toplayın”.

**Zooparkda olmusunuzmu?**
**Orada hansı heyvanlara rast gəlmisiniz?**
**Nə üçün zooparkda hər heyvana xüsusi şərait yaradılır?**

**Yeni sözlər**

- Aplikasiya

LAYİHƏ

# 5 Rəngarəng quşlar

## Düşünək-müzakirə edək

Rəssam öz əsərində nə təsvir etmişdir? **A** Onlar bir-birindən nə ilə fərqlənirlər? Quşlar harada məskən salırlar? Şəkildəki quşlardan hansını tanıyırsınız? **B** Onların forması, ölçü və rəngləri haqqında danışın.






**A** "Quşlar". Natiq Fərəcullazadə.

**B** Quşlar

## Öyrənək

Quşların başında al-əlvan kəkilləri olur. Quyruqlarında rəngarəng lələklər var. Hər ikisi quşların bəzəyi sayılır. Quşları çəkmək, hətta formalarını kağızdan qatlamaq olur. Kağızdan qatlamaq sənəti **oriqami** adlanır.

LAYİHƏ

## Kağızdan oriqami-quş hazırlayın.

**Yaradıcılıq studiyası**

- A4 ölçülü rəngli və ağ kağız
- Qayçı
- Rəngli flomasterlər

**1** A4 formatlı vərəqi elə qatlayıb kəsmək lazımdır ki, kvadrat əmələ gəlsin.




**2** Kvadrat vərəqi iki hissəyə qatlayın, sonra onu açın.



**3** Kvadrat vərəqin qarşı-qarşıya olan iki ucunu orta xətdə birləşdirin.



**4** Əvvəlcə hər iki hissəni, sonra isə uclarını əksinə qatlayın.



**5** Çevirin və orta hissəni qatlayın.



**6** Yuxarı hissədən iki yerə qatlayın.



**7** Uc hissəni qabağa doğru əyin.



**8** Dimdik və quyruq hissələri qatlayın.



**9** Quşa flomasterlərlə bəzək vurun, gözlərini çəkin.







**Daha hansı əşya və canlılar üçün oriqami düzəldə bilərsiniz?**

**Yeni sözlər**
- Oriqami

LAYİHƏ

STEAM

• Rəngli kağızlar • Rəngli flomasterlər • Plastilin

**Yeni sözlər** • Xəritə

## Heyvanlar aləminin xəritəsini hazırlayaq

Xəritə nədir? Sular və quru yerlər xəritədə necə təsvir olunur?



**Araşdıraq və tədqiqat aparaq**

İnsanlar səyahət edərkən **xəritə**dən istifadə edirlər. Burada dənizlər, çay və göllər, meşə və dağlar, ölkə və şəhərlər təsvir olunur.
Siz də öz xəritənizi hazırlaya bilərsiniz.

**Düşünək**

Xəritənizi necə adlandıracaqsınız? Heyvanları hara yerləşdirəcəyinizi bilirsinizmi?

**Yaradaq**

Rəngli kağız və ya plastilindən müxtəlif fiqurlar vasitəsilə heyvan və quşlar hazırlayın. Detalları flomasterlərlə də işləyə bilərsiniz. Heyvanları yaşadıqları yerdə yerləşdirin.

LAYİHƏ

# 2 TƏBİƏT VƏ İNCƏSƏNƏT



- Təbiət insana nə verir?
- Təbiətdə hansı rənglər var?
- Təbiəti bəzəyən nələrdir?

LAYİHƏ

# 6 Təbiətin yaratdığı evlər

## Düşünək-müzakirə edək

Canlıların evciklərinin xarici görünüşünə baxın. **A** – **Ç**
Onların daxilinin necə olduğunu təsəvvür edə bilərsinizmi?
Onların forması haqqında danışın.



**A** Balıqqulağı



**B** Tısbağa çanağı



**C** Arı pətəyi



**Ç** Koğuş

## Öyrənək

Koğuş, quş yuvası, balıqqulağı, tısbağa çanağı – təbiətin yaratdığı evciklərdir. Arılar, həşəratlar özlərinə evcik, qarışqalar isə bütöv bir şəhərcik qururlar.

LAYİHƏ

İnsan tikməyi təbiətdən öyrənir. Evi tikmək üçün onun forma, ölçü və rəngləri əvvəlcədən düşünülür. Bu işlə xüsusi rəssam – **memar** məşğul olur.







**D** Memarın təbiət formasında yaratdığı evlər.

Evlər təbiətdəki hansı formaları xatırladır?

**İnsanların heyvanlar üçün tikdiyi evlər hansılardır?**

**Yaradıcılıq studiyası**

- Rəngli təbaşirlər
- Rəngli flomasterlər

**Qeyri-adi formalı ev fikirləşin və çəkin.**

- Evə baca, qapı və pəncərə çəkin.
- İstəyinizə uyğun olaraq, evin təkərləri və qanadları da ola bilər.



**E** Şagird rəsmi

**Yeni sözlər**

- Memar

LAYİHƏ

# 7 Torpağın naxışları

## Düşünək-müzakirə edək

Rəssamın çəkdiyi gül haqqında nə bilirsiniz? **A**
Qızılgülə harada rast gəlmisiniz?



**A** “Qızılgül və bülbül”. Mirzə Qədim İrəvani.

## Öyrənək

Güllər torpağın **naxışı**, yəni bəzəyi hesab olunur. Güllərin müxtəlif formaları var.



Xarı bülbül | Bənövşə | Çobanyastığı | İnciçiçəyi

**B** Müxtəlif formalı güllər.

**Gülləri formalarına görə müqayisə edin.** **B**

Təkrarlanan gül formalarından naxışlar yaratmaq olar. Azərbaycan xalçasında da gül naxışlarına da rast gəlinir. **C** Xalçadakı naxışları rəngli yun saplardan toxuyurlar.



**C** Qədim Quba xalçası.

**Yun saplardan daha nələr toxuyurlar?**



LAYİHƏ

**Güllərdən ibarət xalça çəkin.**

**Yaradıcılıq studiyası**
- Rəngli flomasterlər
- Pastel təbaşirlər

**1** Əvvəlcə iri və kiçik dairələr çəkin.



**2** Dairələr ətrafında müxtəlif formalı ləçəklər çəkin.



**3** Xalçanı pastel təbaşirlə rəngləyin. Çiçəkləri isə flomasterlə.





**Ç** Şagird rəsmi

**Naxışlardan nə üçün istifadə olunur? Ətrafınızda naxışla bəzədilmiş daha nələr var?**

**Yeni sözlər**
- Naxış

LAYİHƏ

# 8 Heyvanların naxışlı "geyimləri"

## Düşünək-müzakirə edək

Canlıların da naxışları varmı ? **A** – **C**
Rəssam canlıların "geyimini" naxış kimi göstərmişdir. Şəkillərdə bu naxışları tapa bilərsinizmi? Onlar hansı xətləri xatırladır?

**A**





**B**





**C**





## Öyrənək

Canlıların "geyimi" kiçik naxışlara bənzəyir. Naxışlarda təkrarlanan xətt, rəng və formalar var. Canlıların **görünüş**ü bu naxışlara görə də fərqlənir.



LAYİHƏ

**Heyvan, quş və ya balığın kağız üzərində yapmasını hazırlayın.**
**Heyvan hazırlamaq üçün:**

**Yaradıcılıq studiyası**
- Plastilin
- Rəngli karton

**1** Plastilindən qalın, düz lövhə hazırlayın.



**2** Lövhə üzərində yapmaq istədiyiniz heyvanın formasını cızın.



**3** Plastik biçaq-steklə plastilinin artıq hissələrini kəsib çıxarın.



**4** Naxış yaratmaq üçün müxtəlif ləvazimatlardan istifadə edin.



**5.** Sonda detalları daxil edin.

**Heyvanın "geyimi"ni daha hansı üsullarla bəzəmək olar? İstifadə etdiyiniz ləvazimatlarla başqa nələr düzəltmək olar?**

**Yeni sözlər**
- Görünüş

LAYİHƏ

# 9 Təbiətin rəngləri

## Düşünək-müzakirə edək

Fotoşəkildə çiçəklər qırmızı, Günəş sarı və səma göy rənglərə boyanıb. **A**
Bu rənglərdə təbiətdə daha nələr var?



**A**

Gədəbəy.
Azərbaycan.
Fotoşəkil

## Öyrənək

Qırmızı, sarı, göy – **əsas** rənglərdir. Rəssam öz əsərlərini boyalarla çəkir. Belə rəssama – **rəngkar**, əsərlərinə isə **rəngkarlıq** deyilir.

**Quaş** – sulu boyadır. Boya ilə rəsm çəkmək üçün **fırça**dan istifadə edilir. Fırça **dəyirmi** və **yastı**, **iri** və **nazik** olur.

*Quaş*



*Dəyirmi fırçalar*



*Yastı fırçalar*





LAYİHƏ

## Qalereya



**B** "Torpağın arzusu". Səttar Bəhlulzadə.

## Təsviri sənət əsərlərini araşdırırıq

### Təsvir edirik
Rəssam əsərində nə görürsünüz? **B**

### Təhlil edirik
Rəssam göy, qırmızı və sarı boyalarla nə təsvir etmişdir? Əsərin ön hissəsində hansı rənglər daha çoxdur?

### Şərh edirik
Əsərdəki məkan haqqında nə düşünürsünüz? Güllərin, dağların forması haqqında danışın.

### Qiymətləndiririk
Əsərdə nə xoşunuza gəlir?

## Yaradıcılıq studiyası

- Quaş
- Fırça

**Əsas rənglərdən istifadə etməklə istədiyiniz rəsmi çəkin.**

- Əsas rənglərdə nələrin olduğunu düşünün və çəkin.
- Sonra ətrafını təsvir edin.





**C** Şagird rəsmləri

### Yeni sözlər
- Əsas rənglər
- Quaş
- Rəngkarlıq
- Rəngkar

LAYİHƏ

# 10 Bəzəkli həşəratlar

## Düşünək-müzakirə edək

Gördüyünüz həşəratlar haqqında nə bilirsiniz ? **A** – **C**
Qanadlarındakı bəzəklər barədə danışın.



**A** Parabüzən



**B** Kəpənək



**C** İynəcə

## Öyrənək

Təbiətdə çoxlu sayda müxtəlif həşəratlar var. Onların hər birinin öz **quruluşu**, forması, rəngi və naxışları olur. Həşəratların sağ və sol qanadlarındakı naxışlar eyni olur.

**Daha hansı həşəratları tanıyırsınız? Onlar harada yaşayır?**



LAYİHƏ

**Kəpənəyə əlvan, yaraşıqlı və naxışlı “geyim” çəkin.**



**Yaradıcılıq studiyası**

- A4 format ağ kağız
- Quaş
- Fırça
- Rəngli flomasterlər

**1** Vərəqi iki yerə qatlayın və yenidən açın. Bir hissədə boyalarla ləkə, xətt və yaxud nöqtələr çəkin.





**2** Vərəqi yenidən qatlayın və üzərindən əlinizlə basın.



**3** Sonra vərəqi açın. Sizdə iki yayılmış ləkə alındı.





**4** İş quruduqdan sonra kəpənəyə flomasterlərlə göz, buynuz və hətta naxışlar da çəkə bilərsiniz.



**D** Şagird işi

**Bu üsulla daha nələri çəkmək olar?**
**Həşəratlar bizə hansı xeyir və zərər verir?**

**Yeni sözlər**
- Quruluş

LAYİHƏ

• Rəngli kağızlar • Rəngli flomasterlər • Plastilin

**Yeni sözlər** • Düşərgə • Ekskursiya

## Payız meşəsində düşərgə aplikasiyasını düzəldək

Düşərgə nədir? Düşərgədə olmusunuzmu?
Düşərgəni nə üçün təbiət qoynunda qururlar?
Burada olan insanlar nələri müşahidə edir, nələrlə tanış olurlar?



### Araşdıraq və tədqiqat aparaq

Fəal həyata üstünlük verən insanlar **düşərgə**ni çox sevirlər. Onlar yürüş və **ekskursiya**lara gedir, idman və yaradıcılıqla məşqul olur, əylənirlər. Düşərgələri çox vaxt meşə və dağlarda qururlar. Burada ağaclar və güllər, çaylar və ya şəlalələr, heyvanlar, quşlar və həşəratlar olur. Siz də payız meşəsində öz düşərgənizi yarada bilərsiniz.

### Düşünək

Düşərgəyə nə adı verərdiniz? Onu harada qurardınız: meşədə, dağda, yaxud çay kənarında? Quracağınız düşərgədə hansı heyvan və quşlar olacaq? Hansı bitkilər və həşəratlar istərdiniz? Düşərgənin yanındakı çayda balıqlar olacaqmı? Gecələmək üçün meşədə rəngli çadırlar da olacaqmı? Düşərgəni Azərbaycanın hansı səfalı yerində qurardınız?

### Yaradaq

Düşərgədə olan varlıqların formalarını rəngli kağızlardan hazırlayın. Xırda hissələri rəngli flomasterlərlə çəkin. Düşərgənin hissələrini və hazırladığınız varlıqları vərəqdə yerləşdirin. Öndə və və arxada nələrin olduğunu müəyyən edin və yapışdırın.



LAYİHƏ

# 3 DƏYƏR VERDİYİMİZ İNSANLAR



- İnsanlar bir-birindən nə ilə fərqlənirlər?
- Ən çox sevdiyiniz insanlar kimlərdir?
- Siz həmin insanları necə təsvir edərdiniz?

LAYİHƏ

# 11 Mən kiməm?

## Düşünək-müzakirə edək

İnsan sifətinin şəkillərinə baxın. **A** Onlar hansı formadadır?




**A** Müxtəlif quruluşlu uşaq sifətləri

## Öyrənək

Rəssamlar öz əsərlərində insanları təsvir edirlər. Belə əsərlərdə sifətin forması, üz cizgiləri və insanın **xarakteri** göstərilir.

## Qalereya



**Bəhruz Kəngərli**
Rəssam çoxlu insan təsvirləri çəkmişdir.

LAYİHƏ



**B** "Oğlan budaq ilə". Bəhruz Kəngərli.



**C** "Qırmızı yaylıqlı qız". Bəhruz Kəngərli.

Rəssam əsərlərindəki sifət formaları haqqında nə deyə bilərsiniz? **B**, **C**

**Dostlarınızın sifət quruluşları hansı formalardadır?**

## Yaradıcılıq studiyası

- Ağ və rəngli kağızlar
- Qəzet parçaları
- Rəngli flomasterlər

**Öz portretinizi ağ və rəngli kağızdan, qəzet parçalarından hazırlayın.**

Belə əl işinə **kollaj** deyilir.

- Rəngli kağız və ya qəzet vərəqində istədiyiniz sifət formasını çəkin. Əllərinizlə bu formanı cırın.
- Göz, ağız, burun formalarını da cırın.
- Sifətin hissələrini birləşdirin və kollajı hazırlayın.



**Ç** Şagird kollajı

**Yeni sözlər**
- Kollaj
- Xarakter



LAYİHƏ

# 12 Həyatımızdakı xüsusi insanlar

## Düşünək-müzakirə edək

Rəssam nə təsvir edib ? **A** İnsanlar bir-birinə necə qayğı göstərirlər?



**A** "Ana ürəyi".
Baba Əliyev.

## Öyrənək

Hər kəsin həyatında əhəmiyyət verdiyi xüsusi insanlar var. Onlar bir-birinə dəyər verir və qayğı göstərir. Sizin əhəmiyyət verdiyiniz insanlar kimlərdir?

## Qalereya



**Əzim Əzimzadə**
Rəssam öz əsərlərində insanların gündəlik həyatını təsvir edir.

LAYİHƏ



**B** "Varlı evində Ramazan".
Əzim Əzimzadə.

## Təsviri sənət əsərlərini araşdırırıq

### Təsvir edirik
Əsərdə nə görürsünüz?

### Təhlil edirik
İnsanların sifətləri hansı formalara bənzəyir? Sənətkar insanların sifət ifadəsi ilə nə demək istəmişdir?

### Şərh edirik
Rəssamın məkana və insanlara münasibəti haqqında nə düşünürsünüz? O, əsərdə insanların bir-biri ilə və pişiklə rəftarında nəyi çatdırmağa çalışıb?

### Qiymətləndiririk
Sənət əsərində nə xoşunuza gəldi? Əsərdə nəyi dəyişmək istərdiniz?

## Yaradıcılıq studiyası

- Rəngli flomasterlər
- Pastel təbaşirlər

**Dəyər verdiyiniz insanları bir arada təsvir edin.**

- Sifət ifadələrini çəkin.
- Onların bir-birinə olan qayğısını göstərin.



**C** Şagird rəsmləri

LAYİHƏ

# 13 Fəaliyyətdə olan insanlar

## Düşünək-müzakirə edək

Rəssam əsərinə baxın. İnsanlar nə edir? **A**
İnsan fiqurlarını rəssam hansı materialdan hazırlayıb?



**A** "Cəngi".
Arif Qazıyev.

## Öyrənək

**Həcm**li insan fiqurları yaradan rəssama **heykəltəraş** deyilir. Onun yaratdığı isə **heykəltəraşlıq** əsəri adlanır.

## Qalereya



**Fuad Əbdürrəhmanov**
Heykəltəraş **heykəl** yaradır. O, öz əsərlərini ağac, gil, daş və metaldan hazırlayır.



**B** "Oxatan".
Fuad Əbdürrəhmanov.



**C** "Çoban".
Fuad Əbdürrəhmanov.

**İnsan heykəlləri haqqında danışın. Onlar nə edir?**
**Rəsm heykəldən nə ilə fərqlənir?**



LAYİHƏ

**Hərəkət edən insan fiqunu yapın.**

- Açıq havada dostlarınızla oynamağı sevirsinizmi?
- Oynayarkən qollarınızı və ayaqlarınızı necə hərəkət etdirirsiniz?
- Bir-birinizi müşahidə edə bilərsiniz.

**Yaradıcılıq studiyası**

- Plastilin
- Plastilin üçün lövhə

Ç



1 2 3

D



1 2 3

**Yaşadığınız yerdə hansı heykəlləri görmüsünüz?**

**Yeni sözlər**

- Həcm
- Heykəltəraşlıq
- Heykəltəraş
- Heykəl

LAYİHƏ

STEAM

• Rəngli kağızlar • Rəngli flomasterlər • Pastel təbaşirlər • Quaş

**Yeni sözlər** • Muzey • Sərgi • Seyr etmək • Tamaşaçı

## İncəsənət muzeyinə səyahət edək

Rəssamların yaratdığı sənət əsərlərinə harada rast gəlmək olar?
Onlar harada qorunub saxlanılır və nümayiş etdirilir?
Sərgilər nə üçün keçirilir? Orada kimlər iştirak edir?



### Araşdıraq və tədqiqat aparaq

Rəssamlar tərəfindən yaradılan ən yaxşı rəsmlər, əsərlər, heykəllər xüsusi yerdə – **muzeylərdə** qorunur və nümayiş etdirilir. İnsanlar bu əsərləri **seyr etmək** üçün muzeylərə gəlirlər. Müasir dövrdə muzeylərə internet vasitəsilə virtual olaraq da ekskursiya etmək olar. Müəllim və ya valideynin köməyi ilə Azərbaycan Milli İncəsənət Muzeyinin rəsmi saytından muzeyə virtual ekskursiya edə bilərsiniz. Siz də öz sərgi zalınızı və tamaşaçıları hazırlaya bilərsiniz.

### Düşünək

Muzeydə nələri yerləşdirəcəksiniz? Divarlarını hansı rəngə boyayacaqsınız? Ziyarət edənlər arasında kimlər olacaq? Muzeyinizdə hansı rəssamların əsərlərini sərgiləyəcəksiniz? Əgər muzeylər olmasaydı, insanların həyatında nə dəyişərdi?

### Yaradaq

Yaradacağınız muzeyin divarlarında rəssam əsərlərini, otaqlarda isə ziyarətçiləri yerləşdirin. Divarlarda böyük monitorlar da ola bilər. Sizcə bu nə üçündür? İnsanları rəngli kağızlardan, yaxud rəsmini çəkməklə hazırlayın, sonra yapışdırın. İnsanların incəsənətə marağını, sifət ifadələrini göstərməyə çalışın.



LAYİHƏ

# 4 İNSAN VƏ MƏKAN



- Qədimdə insanlar harada yaşayırdılar?
- Ev insanlara nə üçün lazımdır?
- Evləri harada tiriklər?

LAYİHƏ

# 14 Evimizin otaqları

## Düşünək-müzakirə edək

Rəssam əsərində hansı otağı görürsünüz? **A** Fikrinizi əsaslandırın.



**A** "Yataq otağı". Vinsent Van Qoq (Holland rəssamı).

## Öyrənək

İnsanlar evlərini daim **rahat** etməyə çalışırlar. Hər evdə müxtəlif otaqlar var. Otaqlar müəyyən məqsədlər üçün istifadə edilir. İnsanlar onları öz **zövq**lərinə görə bəzəyirlər. Bu otaqlarda mebel və müxtəlif əşyalar olur.



LAYİHƏ

## Qalereya









**B**

Müxtəlif otaqlar

Hansı otaqları görürsünüz? Onlar bir-birindən nə ilə fərqlənir?

**Evinizdə ən çox vaxt keçirdiyiniz otaq hansıdır?**
**Bu otaqda əsasən nə ilə məşğul olursunuz?**

## Yaradıcılıq studiyası

- Pastel təbaşirlər
- Quaş

**Sevdiyiniz və ya xəyal etdiyiniz otağı çəkin.**

- Hansı otağı çəkəcəksiniz?
- Divarları hansı rəngə boyayacaqsınız?
- Otağa nə qoyacaqsınız?



**C** Şagird rəsmi

**Yeni sözlər**
- Zövq
- Rahat

LAYİHƏ

# 15 Pəncərədəki naxışlar

## Düşünək-müzakirə edək

Şəkildə nə görürsünüz? Bu nə zaman baş verir?

**A** Qarın möcüzələri haqqında danışın.



**A** Pəncərədə şaxtanın əmələ gətirdiyi naxışlar

## Öyrənək

Şaxtalı qarlı havada otağın pəncərələrini ağ xətlərlə zərif naxışlar bürüyür. Şüşə üzərindəki rəsmlərdə qeyri-adi heyvanları, gözəl ağac və çiçəkləri, dənizi, ulduzları görə bilərsiniz.



LAYİHƏ

Xətlə çəkilən rəsmlər **qrafika** adlanır. Qrafika adətən ağ-qara rəsmlərə deyilir.



**B** "Şahnabad dağları". Səttar Bəhlulzadə.

**Rəssam qrafika əsərində hansı xətlərdən istifadə etmişdir?**



**C** Qara flomasterlə çəkilmiş naxışlar

**Ətrafımızda ağ-qara xətt və naxışları harada görmək olar?**

## Yaradıcılıq studiyası

- A4 format ağ və ya qara kağız
- Qara flomaster
- Ağ və qara pastel təbaşirlər

**"Pəncərə" üzərində zərif naxışlar çəkin.**

- Ağ kağızda qara, yaxud qara kağızda ağ pastel təbaşirlə çəkin.
- Qara flomasterlə ağ kağız üzərində də çəkə bilərsiniz.



**Ç** Şagird rəsmi

**Yeni sözlər**
- Qrafika

LAYİHƏ

# 16 Yaşadığımız küçə

## Düşünək-müzakirə edək

Küçə fotoşəkillərinə baxın. **A** – **C** Binaların quruluşunda hansı formalar var? Yaşadığınız küçənin adını bilirsinizmi? Küçənizdə nələr var?



**A** Qədim Bakı. İşərişəhər küçələri. Fotoşəkil.



**B** Müasir Bakı küçələri. Fotoşəkil.



**C** İsmayıllı rayonu. Lahıc qəsəbəsi. Fotoşəkil.



LAYİHƏ

## Öyrənək

Pəncərədən küçəyə baxarkən çoxlu **hündür** və **alçaq, enli** və **ensiz** tikililər görürük. Onlar müxtəlif formalarda olur.

- **Binaların görünüşünü planlaşdıran rəssam necə adlanır?**

## Qalereya

**Ç**

"Filarmoniya". Oqtay Şıxəliyev.



**D**

Azərbaycan Dövlət Filarmoniyası. Fotoşəkil



Şəkillərdəki bınanın quruluşunda hansı formaları görürsünüz?

**Şəhərinizdə daha hansı formalarda binalara rast gəlmisiniz?**
**Memar olsaydınız, necə bina inşa edərdiniz?**

## Yaradıcılıq studiyası

- A4 format ağ və rəngli kağızlar
- Rəngli flomasterlər
- Qayçı və yapışqan

**Küçə və binaların aplikasiyasını hazırlayın.**

- Binaların harada yerləşəcəyini müəyyən edin.
- Əsas fiqurlardan istifadə edərək bina formaları fikirləşin. Onları rəngli kağızdan kəsin.
- Binalar hündür və alçaq, enli və ensiz ola bilər.
- Küçədə olan yol, nəqliyyat, ağacları da kəsin və yapışdırın.



**E** Şagird işi

**Yeni sözlər**

- Hündür
- Alçaq
- Enli
- Ensiz

LAYİHƏ

# 17 Torpaq və səma

## Düşünək-müzakirə edək

Rəssam nə təsvir etmişdir? **A** – **B** Əsərdə təbiətin hansı gözəllikləri əks olunmuşdur? Rəssam yaxında və uzaqda nələri təsvir etmişdir?



**A** "Bahar nəğməsi" Səttar Bəhlulzadə.

## Öyrənək

Rəssam təbiətin rəngarəngliyini öz əsələrində təsvir edir. Bu əsərlərdə ağaclar və çiçəklər, quşlar və heyvanlar, mavi səma və buludlar, torpaq və yaşıl çəmənliklər əks olunur. Rəssam bunları **yaxın**dan və **uzaq**dan təsvir edir.

LAYİHƏ

**Qalereya**



**B** "Dağ mənzərəsi". Bəhruz Kəngərli.

Əsərdə təsvir olunanları sadalayın. Onlardan hansılar yaxından və ya uzaqdan görünür?

**Sinif otağının pəncərəsindən baxdıqda yaxında və uzaqda nələri görürsünüz?**

**Yaradıcılıq studiyası**

- Quaş
- Rəngli flomasterlər
- Pastel təbaşirlər

**Təbiəti təsvir edin.**

- Yaxın və uzaqda nələri göstərəcəksiniz?
- Dağlar, evlər, ağaclar, kollar və çiçəklər çəkin.
- Torpağı səmadan xətlə ayırın.



**C** Şagird rəsmi

**Yeni sözlər**

- Yaxın
- Uzaq

LAYİHƏ

# 18 Əyləncə parkı

## Düşünək-müzakirə edək

Şəklində nə görürsünüz? **A** Əyləncə meydançasında hansı yelləncəklər var? Onları kim yaradıb? Hansı formalardadır? Siz burada vaxtınızı necə keçrərdiniz? Bu yelləncəklər harada yerləşir?



**A** Uşaqlar üçün əyləncə parkı



LAYİHƏ

## Öyrənək

Əyləncə meydançalarının necə görünəcəyini rəssamlar düşünürlər. Onlar bunun üçün müxtəlif xətt, forma və rənglərdən istifadə edirlər. Yelləncəkləri də rəssamlar uşaqların zövqünə uyğun yaradırlar.

## Qalereya



**B** "Yelləncək". Martin Klue

Əsərdə gördüyünüz yelləncəyin forma və rəngləri haqqında nə deyə bilərsiniz?

**Hansı əyləncə parklarında olmusunuz? Oradakı əyləncə meydançaları və yelləncəklər haqqında danışın.**

## Yaradıcılıq studiyası

- Quaş
- Rəngli flomasterlər

**Rəngarəng və maraqlı əyləncə parkı düşünün və çəkin.**

- Parkda bir neçə əyləncə meydançası təsvir edin.
- Müxtəlif formalı yelləncəklər göstərin.
- Parkda görmək istədiklərinizi də əlavə edin.





**B** Şagird rəsmi

LAYİHƏ

• Rəngli kağız və karton • Kağız və plastik qutular
• Plastilin • Quaş • Pastel təbaşirlər

**Yeni sözlər** • Plan

## Şəhərimizi quraq

Evlər, müxtəlif tikililər, küçələr, parklar birlikdə harada yerləşir? Yaşadığınız yerdə hansı tikililər var? Tikililərdən başqa daha nələr var? Şəhəri gözəl və yaraşıqlı edən nədir? Şəhərin qurulmasında kimlərin rolu var?



### Araşdıraq və tədqiqat aparaq

Evlər və binalar, müxtəlif hündür və alçaq tikililər, dar və enli küçələr, yaşıl ağac və kollar, park və xiyabanlar şəhərimizi gözəlləşdirir. Memarlar bina və küçələrin necə görünüşlərinin **planını** hazırlayır. Sonra bu plan əsasında maket düzəldilir. Maketlərə hər tərəfdən baxmaq olur. Siz də öz şəhərinizi hazırlaya bilərsiniz.

### Düşünək

Şəhərin **planını** hazırlayarkən nəyi nəzərə almaq lazımdır? Şəhərdə hansı binalar var? Binalar bir-birindən nə ilə fərqlənir? Küçələrdə, yol kənarlarında nə yerləşdirəcəksiniz? Orada insanlar da olacaqmı? Bəlkə onları plastilindən hazırlayasınız? Şəhərinizə hansı adı verəcəksiniz? Onun digər şəhərlərdən fərqi nədə ola bilər? O nə ilə zəngin olacaq?

### Yaradaq

Sinif yoldaşlarınızla birgə öz şəhərinizi planlaşdırıb qurun. Məişətdə istifadə etdiyiniz kağız, plastik qutulardan ev və müxtəlif formalarda binalar hazırlayın. Bunun üçün nə etməlisiniz? Binaların pəncərə və qapılarını, damını necə göstərəcəksiniz? Şəhərinizdəki küçə və ağacları da kağızdan kəsib hazırlayın.



LAYİHƏ

# 5 ƏYLƏNCƏ ZAMANI



- Bayram günlərində insanlar necə əylənirlər?
- Şənliklərdə süfrələri hansı şirniyyatlar bəzəyir?
- İnsanlar bu günlərdə hansı geyimlərdən istifadə edirlər?

LAYİHƏ

# 19 Ziyafət şirniyyatı

## Düşünək-müzakirə edək

Şəkildə hansı şirniyyatları görürsünüz? **A**
Onları adətən, kim və hansı günlərdə hazırlayır?
Onlar hansı forma və rənglərdə olur?







**A** Şirniyyatlar

## Öyrənək

İnsanlar əhəmiyyətli günləri adi günlərdən fərqli qeyd edirlər. Onlar çox vaxt bu günlərdə tort və şirniyyatlar hazırlayırlar. Rəngbərəng tortlar bayram süfrəsinə xüsusi gözəllik verir!



LAYİHƏ

Tortların belə gözəl görünməsində rəssamların rolu böyükdür. Bu rəssamlar **dekorator** adlanır.

- **Tort dekoratoru hansı xətlərdən istifadə etmişdir?** A **O, şirniyyatlar üçün hansı rəngləri seçmişdir?**

## Qalereya



B "Azərbaycan nağılı" Səttar Bəhlulzadə.

Rəssam əsərində hansı şirniyyatları çəkmişdir? B

**Şirniyyatı sənət əsəri hesab etmək olarmı? Fikrinizi əsaslandırın.**

## Yaradıcılıq studiyası

- Rəngli flomasterlər
- Pastel təbaşirlər
- Quaş

**Qeyri-adi tort rəsmi çəkin.**

- Tortun formasını düşünün.
- Hansı rəngləri seçəcəksiniz?
- Hansı növ xətlərdən istifadə edəcəksiniz?
- Onun üzərini necə bəzəyəcəksiniz?



C Şagird rəsmi

**Yeni sözlər**
- Dekorator

LAYİHƏ

# 20 Bayram geyimləri

## Düşünək-müzakirə edək

Gördüyünüz geyimlər bizim gündəlik geyimlərimizdən nə ilə fərqlənir? **A**
Onların forma, ölçü və rəngi haqqında nə deyə bilərsiniz?



**A** Azərbaycan milli geyimləri.

## Öyrənək

Bəzi insanlar xüsusi günlərdə **milli geyim**lərdən istifadə edirlər. Hər xalqın özünəməxsus milli geyimləri və bu geyimləri bəzəyən naxışları var.
**Naxış** – xətt, fiqur və təbii formalardan ibarət bəzəkdir. Gül və yarpaqlardan ibarət olan bəzək **nəbati naxış** adlanır.



LAYİHƏ

Azərbaycanın da özünəməxsus qadın və kişi geyimləri var. Qadınlar jaket və tumandan ibarət dəst – qadın **kostyumu** geyinirlər. Kişilərin kostyumu isə pencək, şalvar, yaxud jiletdən ibarət olur.

Dəyirmi fırçanın köməyi ilə yaradılan nəbati naxışlar.



Fırçanın ucu ilə nöqtələr qoyulur



Fırça ilə yaxma – ləçəklər qoyulur

## Qalereya

**B**

"Milli geyimli qız".
Bəhruz Kəngərli.
1921.
Suluboya



Rəssam kostyuma yaraşıq verən əlavə nələr çəkmişdir?

**Milli kostyum geyinmisinizmi?**
**Onları hansı günlərdə geyinirlər?**
**Bu geyimləri gözəl edən nədir?**

## Yaradıcılıq studiyası

- Quaş
- Rəngli flomasterlər

**Milli geyim çəkin və üzərini naxışlarla bəzəyin.**

- Nümunələrə baxın və öz naxışınızı fikirləşin.
- Fırça ilə onları bəzəyin.





**C** Milli geyim üzərində naxış nümunələri

**Yeni sözlər**
- Milli geyim
- Kostyum
- Naxış
- Nəbati naxış

LAYİHƏ

# 21 Xüsusi geyimlər

## Düşünək-müzakirə edək

Şəkillərdə hansı peşə sahiblərini görürsünüz? **A** Onları necə tanımaq olar? Onların geyimləri nə ilə fərqlənir?




**A** Yanğınsöndürən, polis, həkim və hərbçilər üçün xüsusi geyimlər.

## Öyrənək

Hər bir peşə sahiblərinin xüsusi geyimləri olur. Bu geyimləri başqalarından fərqləndirən forma, xətt və **ləkə**lər var. Onların rəngləri də fərqlidir.
Bəzi peşə sahiblərinin də bayram geyimləri olur. Məsələn, hərbçilər bayram günlərində və paradlarda daha **təmtəraqlı** geyinirlər.

**Xüsusi geyimlər nələrdən ibarətdir?**



LAYİHƏ

## Qalereya



**B** Hərbçilərimiz zəfər paradında. Bakı.

Hərbçilərin bayram geyimlərində hansı rənglər var?

**Daha hansı xüsusi geyimlər var? Məktəbli formasını da xüsusi geyim adlandırmaq olarmı?**

## Yaradıcılıq studiyası

- Rəngli flomasterlər
- Quaş
- Pastel təbaşirlər

**Azərbaycan əsgərini çəkin.**

- Əsgərin geyimi hansı rəngdə olacaq?
- Əsgəri harada çəkəcəksiniz?
- Üçrəngli bayrağımızı da əlavə edin.



**C** Şagird rəsmi

**Yeni sözlər**

- Ləkə
- Təmtəraqlı

LAYİHƏ

# 22 Oyun geyimləri

**Düşünək-müzakirə edək**

Gördüyünüz geyimləri nə vaxt geyinirlər? **A** Onlar forma, ölçü və rənglərinə görə necə fərqlənir? Hansı idman oyunlarını sevirsiniz?



Voleybol



Tennis



Basketbol



Futbol

**A** İdman geyimləri



LAYİHƏ

## Öyrənək

Oyun zamanı insanlar rahat geyinirlər. Geyim rəngarəng və naxışlı olur. Oyunlarda komanda üzvləri eyni geyinirlər. Bu geyimlər rəqib komandanın geyimlərindən fərqlənir.

## Qalereya



**B** “Basketbol.” Xalidə Səfərova. 1970. Yağlı boya

Rəssamın təsvir etdiyi oyun haqqında nə bilirsiniz? Geyimlərin rəngi niyə fərqlidir?

**Ən çox sevdiyiniz oyunçular kimlərdir? Onların idman forması nə ilə fərqlənir?**

## Yaradıcılıq studiyası

- Pastel təbaşirlər
- Rəngli flomasterlər
- Quaş

**Oyun geyimi çəkin.**

- Hansı oyunu çəkəcəksiniz?
- Oyunçular qızlar, yoxsa oğlanlar olacaq?
- Geyimlərdə hansı rəngləri və naxışları göstərəcəksiniz?



**C** Şagird rəsmləri

LAYİHƏ

# 23 Bayram maskaları

## Düşünək-müzakirə edək

Gördüyünüz maskalar hansı canlılara aiddir? **A** Maskalardan nə zaman istifadə edirlər?



**A** Müxtəlif maskalar

## Öyrənək

İnsanlar bayram və şənliklərdə çox zaman maska taxırlar. Maskaları heyvan, quş və həşaratlara bənzədirlər. Onlar kağızdan, dəridən, parçadan və digər materiallardan hazırlanır.

**Maskalardan istifadə etmisinizmi? Bu nə zaman olub?**



LAYİHƏ

**Yaradıcılıq studiyası**

- Birdəfəlik kağız boşqab
- Rəngli kağız
- Çöplər, dartılan iplər

**Şənlik üçün maska hazırlayın.**

Heyvan maskalarına baxın. **B** Bunlardan hansını hazırlayamaq istərdiniz?



**B** Heyvan maskaları

Heyvan maskası hazırlamaq üçün birdəfəlik boşqab götürün.



1. Gözlər üçün boşqabda dəliklər açın.



2. Rəngli kağızlardan detalları kəsin və yapışdırın.



3. Maskanızı başınıza taxmaq üçün kənarlarına iplər bağlayın.



4. Əlinizdə tutmaq üçün isə çubuqlardan istifadə edə bilərsiniz.

Hazırladığınız maskanı yoldaşlarınıza göstərmək üçün onu taxın.

**Başqa hansı maskanı düzəltmək istərdiniz? Niyə?**

**Yeni sözlər**
- Maska

LAYİHƏ

• A1 format vərəq • quaş • flomasterlər • pastel təbaşirlər • qayçı • yapışqan

**Yeni sözlər** • Karaoke

## Əyləncə üçün məkan və geyim çəkək

Əylənməyi və istirahət etməyi sevirsinizmi? Bəs müsiqi oxumağı, rəqs etməyi necə? **Karaoke** haqqında eşitmisinizmi? Onun nə qədər faydalı və şən olduğunu bilirsinizmi?



### Araşdıraq və tədqiqat aparaq

"Karaoke" – yapon sözüdür, "boş orkest" mənasını verir. Karaoke zamanı uşaqlar böyük səhnələrdə olduğu kimi musiqi sədaları altında mahnı oxuyur, rəqs edir, özlərini məşhur müğənnilər kimi hiss edirlər. Onlar asudə vaxtlarını səmərəli keçirirlər. Mikrofon, səsgücləndirisi, lazer disklər, monitor və videoyönləndiricilər karaoke ifa etmək üçün çox vacibdir.

### Düşünək

Təsəvvür edin ki, birlikdə karaoke ifa edirsiniz. Bunun üçün hansı mahnıları seçərdiniz? Bəs məkanı necə təsəvvür edirsiniz? Məkanda nələr olmalıdır? Musiqinin səsləndirilməsi və ifa edilməsi üçün nələr lazımdır? Geyim və ayaqqabılarınızın necə olmağını istərdiniz? Karaoke ifa edərkən hansı yeniliklərlə tanış olur, nələr öyrənirsiniz? Ailənizlə birlikdə karaoke ifa etməyi düşünürsünüzmü?

### Yaradaq

Əylənmək üçün maraqlı məkan və geyimlər hazırlayın. Bunun uçun işi öz aranızda paylaşın. Böyük format vərəqdə məkanı çəkin. Rəngarəng işıqları göstərmək üçün, onları müxtəlif əlvan rənglərlə boyayın. Uşaqları ayrı vərəqlərdə çəkin və rəngləyin. Sonra hazır fiqurları kəsin və məkan olan vərəqdə yerləşdirərək yapışdırın. Uşaqların rahat olması üçün gözəl və əlvan geyimlər düşünün və çəkin. Bəlkə onlara maskalar da çəkəsiniz?

LAYİHƏ

# 6 HƏYATIMIZDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR



- Həyatınızda hansı dəyişikliklər baş verir?
- İstifadə etdiyimiz əşyaları gələcəkdə necə görmək istərdiniz?
- Uçan avtomobil, yaxud robotunuz olsaydı onlarla nə edərdiniz?

LAYİHƏ

# 24 Ağıllı oyuncaqlar

**Düşünək-müzakirə edək**

Gördüyünüz oyuncaqlar haqqında nə deyə bilərsiniz? **A** Onların hissələri hansı fiqurlara bənzəyir? Bu oyuncaqlardan nələr düzəltmək olar?



**A** Müasir inkişafetdirici oyuncaqlar – konstruktorlar

LAYİHƏ

## Öyrənək

Hamınızın sevdiyi çoxlu oyuncaqlar var. Onlar müxtəlif forma, ölçü və rənglərdə olur. Qədimdə oyuncaqlar daş, sümük, ağac, gil və ya parçadan hazırlanardı.

## Qalereya



**B** Qədim oyuncaqlar

**Oyuncaqları nə üçün sevirsiniz?**
**Özünüz necə oyuncaq hazırlamaq istərdiniz?**

## Yaradıcılıq studiyası

- Rəngli kağız və karton

**Maraqlı oyuncaq hazırlayın.**

1. Karton kağız üzərində verilmiş formalardan birini çəkin və kəsin.
2. Rəngli kağızdan detalları kəsib yapışdırın.
3. Barmaqlar üçün dairələr kəsin.





LAYİHƏ

# 25 Gündəlik əşyalar

## Düşünək-müzakirə edək

Gördüyünüz qablar və onların materiallları barədə nə deyə bilərsiniz? **A**
Qabların necə hazırlandığını bilirsinizmi? Bu qablardan necə istifadə edirlər? Onların formaları haqqında danışın.



**A** Müasir qab-qacaq

## Öyrənək

Rəssam ev əşyalarınıdan daha rahat istifadə etmək üçün onların formalarını düşünür. Belə rəssam **dizayner** adlanır.

Keçmişdə xalq sənətkarları qab-qacağı **mis**dən hazırlayardılar. Qablara **misgərlik** nümunələri, bu sənətkarlara isə **misgər** deyilirdi. Qabların belə gözəl görünməsində naxışların rolu böyükdür.



**B** Qədim misgərlik nümunələri



LAYİHƏ

## Yaradıcılıq studiyası

- Plastilin
- Plastilin üçün lövhə

**“Mis” sini, kasa, aşsüzən və kəfkir yapın.**

1. Plastilindən yumru forma hazırlayın.
2. Formanı qaba çevirin.
3. Üzərini naxışla bəzəyin.

1 2 3

Sini



Kasa



Aşsüzən



Kəfkir



**Sizcə, misgərlər misdən daha nələr hazırlaya bilərdilər?**
**Evinizdə hansı materialdan olan qablar var?**

**Yeni sözlər**

- Dizayner
- Mis
- Misgər
- Misgərlik

LAYİHƏ

# 26 Gələcəyin mebeli

## Düşünək-müzakirə edək

Gördüyünüz oturacaqların forması, rəngi və materialı haqqında danışın. **A**
Onları kim düşünüb hazırlayıb? Oturacaqlardakı xətləri şifahi təsvir edin.







**A** Müasir oturacaqlar



LAYİHƏ

## Öyrənək

Rəssam istifadə etdiyimiz **mebeli** də **dizayn** edir. Onların xətt, rəng və formalarını planlaşdırır. Belə mebellərdən biri də oturacaqlardır.
Keçmişdə insanlar yerdə və ya **sandıq** üzərində oturardılar.

## Qalereya



**B** Qədim sandıq

Sandıq görmüsünüzmü? Ondan daha necə istifadə edirdilər?

**Ən çox sevdiyiniz mebel növü hansıdır? Fikrinizi əsaslandırın.**

## Yaradıcılıq studiyası

- Rəngli flomasterlər
- Pastel təbaşirlər

**Qeyri-adi oturacaq düşünün və çəkin.**

- Xətlərdən və fiqurlardan istifadə edin.
- Oturacağı təbiət formalarından da düşünə bilərsiniz.



**C** Şagird rəsmi

**Yeni sözlər**
- Mebel
- Dizayn
- Sandıq

LAYİHƏ

# 27 Səyahət üçün avtomobil

## Düşünək-müzakirə edək

Gördüyünüz avtomobillərin forması nəyə bənzəyir? **A** Sizcə, onlar harada hərəkət edir: yerdə, suda, yoxsa havada? Onları kim icad edib?
Bu maşınların içərisini necə təsəvvür edirsiniz?













**A** Gələcəyin avtomobilləri



LAYİHƏ

## Öyrənək

Hər gün gördüyümüz müxtəlif avtomobilləri də rəssamlar dizayn edirlər. Dizaynerlər avtomobilləri müxtəlif forma, ölçü və rənglərdə düşünürlər.

## Qalereya





**B** Keçmişin avtomobilləri

Keçmişin və gələcəyin avtomobillərində hansı oxşar və fərqli cəhətlər var?

**Ailənizlə səyahət etmək üçün necə avtomobil seçərdiniz?**

## Yaradıcılıq studiyası

- Rəngli flomasterlər
- Pastel təbaşirlər
- Quaş

**Xəyal etdiyiniz yeni bir avtomobil çəkin.**

- O, quruda, suda və ya havada səyahət edə bilər.
- Onun formasını düşünün.
- Avtomobilin bir və ya bir neçə rəngi ola bilər.



**C** Şagird rəsmi



LAYİHƏ

STEAM

• Rəngli kağızlar • Karton • Kağız və plastik qutular • Rəngli flomasterlər • Pastel təbaşirlər • Quaş

**Yeni sözlər** • Robot

## Gələcəyin robotlarını hazırlayaq

Gələcəyə səyahət etmək istərdinizmi? Gələcəkdə həyatımızda hansı dəyişikliklər baş verə bilər? Sizcə, gələcəyin robotları necə olacaq? Onlar hansı işləri görəcəklər? Robotları kim dizayn edir? Sizcə, onlar hansı materiallardan hazırlanır?



### Araşdıraq və tədqiqat aparaq

İnsanlar **robot**-maşın da düşünüb dizayn edirlər. Müasir robotlar müxtəlif iş görə bilir. Robotların dizaynından başqa, mütəxəssislər onların idarə olunması üçün proqram təminatını da düşünürlər. Bu, robotların vəzifələrini dəqiq şəkildə yerinə yetirməsinə imkan verir. Robotu idarə etmək üçün kiçik hissələri və düymləri olur. Onlarla birlikdə gələcəyə səyahət etməyə hazırsınızmı? O zaman uça bilən aparat və fərqli robotlar hazırlayın.

### Düşünək

Robotlara harada rast gəlmək olar? Robot nə iş görə bilər? Robotların forması, rəngi və detalları nəyə əsasən seçilir? Düzəldəcəyiniz robotu xüsusi edən nədir? Ətrafınızda çoxlu robot olsaydı, nə baş verərdi? İnsanların gördüyü işləri robotlar etsə, o zaman insanlar nə işlə məşqul olardı?

### Yaradaq

Robot üçün rəngli kağız və karton, məişətdə istifadə etdiyiniz kağız və plastik qutulardan hazırlayın. Əvvəlcə robotun nə iş gördüyünü müəyyən edin, sonra onun hissələrini hazırlayın. Gördüyü işdən asılı olaraq detal və düymələrini yerləşdirin. Verilmiş nümunələrdən istifadə edə bilərsiniz.



LAYİHƏ

Robotlar



Əl işlərinə dair nümunələr





LAYİHƏ

# Yeni sözlər lüğəti

**Aplikasiya** – rəngli kağız, dəri, məxmər parçaların kağız və ya parça üzərinə yapışdırılması.
**Dekorator** – bəzək, bəzəmək üzrə mütəxəssis, rəssam.
**Dizayn** – rəsm, ideya, layihə; əşyanin bədii tərtibatı.
**Dizayner** – istifadə edilən əşyalar rahat və gözəl olmasını düşünən rəssam.
**Əsas rənglər** – digər rənglərin qarışığından alınmayan qırmızı, göy və sarı rənglər.
**Əsər** – rəssam tərəfindən müxtəlif materiallar vasitəsilə yerinə yetirilən təsvir.
**Fırça** – boyanı kağız üzrərinə çəkmək üçün istifadə edilən alət.
**Forma** – əşyanın ümumi görünüşü. Kvadrat, üçbucaq, dairəvi və s. olur.
**Görünüş** – əşyanın zahiri şəkli, görkəmi.
**Heykəl** – həcmli təsvir. Ona hər tərəfdən baxmaq olar. Heykəllər plastilin, metal, daş, gil və digər materiallardan yaradılır.
**Heykəltəraş** – heykəlləri yaradan sənətkar. O, heykəlləri gil və plastilindən yapır, daşdan yonur, ağacdan oyur.
**Heykəltəraşlıq** – təsviri sənətin həcmli təsvirlər yaradan növü.
**Həcm** – ölçü, böyüklük, miqdar və s. baxımından əşyanın tutumu.
**Xarakter** – insanın hərəkət və davranışında müəyyən edilən cəhət.
**Xətt, cizgi** – təsvir alətləri ilə kağız üzərinə çəkilən cızıq, düz, maili və s. olur.
**Kollaj** – bir əsərdə rənginə, strukturuna, fakturasına görə fərqlənən müxtəlif materialların səth üzərinə yapışdırılması üsulu.
**Kostyum** – kişi və qadın üçün geyim dəsti.
**Qrafika** – təsviri sənət növü. Qrafik təsvirlər xətt və cizgi kimi ifadə vasitələri ilə karandaş, flomaster və qələmlə çəkilir.
**Qrafik-rəssam** – qrafika sahəsində çalışan insan.
**Quaş** – qeyri-şəffaf, qatı örtücü xüsusiyyətə malik sulu boya.
**Quruluş** – hər hansı bir varlığın, obyektin daxilinin qurulma üsulu.
**Ləkə** – rəngkarlıqda bədii ifadə vasitəsi.
**Mebel** – stol, stul, taxt, şkaf, şifoner və s. kimi ev avadanlığı.
**Memar** – bina və tikililərin konstruksiyasını, tərtibatını işləyib hazırlayan rəssam.
**Milli geyim** – hər bir xalqın, millətin özünəməxsus olan geyim növü.
**Misgər** – mis ilə işləyən sənətkar.
**Misgərlik** – misgər sənəti, mis ilə işlənilən xalq sənət növü.
**Naxış** – xətt, fiqur və təbii formalardan ibarət bəzək.
**Nəbati naxış** – gül, yarpaq, budaq və digər təbiət elementlərindən ibarət naxış.
**Oriqami** – yapon mədəniyyətində "kağız qatlama sənəti" adlanır.
**Rəngarəng** – müxtəlif rəngli, əlvan olan.
**Rəngkar** – kətan, lövhə, karton, kağız üzərində boyalarla işləyən rəssam.
**Rəngkarlıq** – təsviri sənət növü; səth üzərində boyalarla işlənilən təsvir.
**Rəssam** – təsviri incəsənət əsərləri yaradan sənətkar.
**Təsvir** – çəkilən, yapılan, fotoaparatın yaddaşına köçürülən yaradıcı işlər.
**Təsvir etmək** – ətraf aləmi seyr etmək, müşahidələr aparmaq və müqayisə edərək çəkmək bacarığı.
**Yapma** – plastilin və ya gil vasitəsilə yaradılan bədii fəaliyyət növü.



LAYİHƏ

Pulsuz

LAYİHƏ